# Anım Günündə keçirilən yürüş şəhidlərin ruhuna ehtiram nümunəsi idi



***Hər birimiz yaxşı xatırlayırıq, bir il bundan əvvəl erməni daşnakları növbəti dəfə atəşkəs rejimini pozaraq, cəbhəboyu mövqelərimizi, eləcə də yaşayış məntəqələrimizi ağır artilleriya atəşinə tutmuşdu. Azərbaycan Ordusu bu təxribata cavab olaraq əks-hücum əməliyyatına başladı, bununla da bir qərinəyə yaxın müddət ərzində həsrətində olduğumuz torpaqlarımız düşmən işğalından azad edildi. Azərbaycan Silahlı Qüvvələri ay yarım davam edən döyüşlər zamanı həyata keçirdiyi genişmiqyaslı əməliyyatlar nəticəsində Vətən müharibəsində tam qələbə qazandı.***

Ötən il dekabrın 2-də Prezident İlham Əliyevin müvafiq sərəncamıyla hərbi əməliyyatların başlandığı 27 sentyabr tarixi Azərbaycanda Anım Günü kimi təsis edildi. Bildiyimiz kimi, respublikamızda torpaq bütünlüyümüz, müstəqilliyimiz uğrunda canından keçmiş şəhidlərə, eləcə də sağlamlığını itirmiş qazilərə hər zaman xüsusi diqqət və qayğı göstərilir. Bu mənada, Preizdent İlham Əliyevin “mən elə bir ölkə tanımıram ki, müharibədə həyatını itirmiş insanların yaxınlarına bu dərəcədə diqqət göstərilsin” sözlərini xatırlamaq məsələnin mahiyyətini açıqlamağa kifayət edir. Bu fikirləri bizimlə söhbətində Azərbaycan Naminə Alyans Partiyası (ANAP) sədrinin birinci müavini Asif Haqverdiyev bildirdi. Asif müəllim dedi:

– Cənab Prezident hər zaman şəhid ailələrini, qaziləri diqqət mərkəzində saxlayır. Onların sosial vəziyyətinin yaxşılaşdırılması üçün daim yeni təşəbbüslər həyata keçirilir. Şəhidlərin xatirəsi daim ehtiramla yad edilir, təhsil ocaqlarında, mədəniyyət ocaqlarında, eləcə də dövlət idarərələrində onların əziz xatirəsini anmaq üçün tədbirlər həyata keçirilir.

Belə genişmiqyaslı tədbirlərdən biri də, sentyabrın 27-də – Azərbaycanda ilk dəfə qeyd edilən Anım Günündə həyata keçirildi. Belə ki, Anım Günü paytaxt Bakıda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva başda olmaqla Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Bakı qarnizonunda yerləşən hərbi hissələrin 3000 nəfərdən çox kursant və hərbi qulluqçusunun iştirakı ilə yürüş keçirilib.

Yürüşdə iştirak edən gənc kursant və hərbi qulluqçularımız, Vətən müharibəsi zamanı şəhid olan, eləcə də, terrorçu Ermənistan ordusunun mülki əhalinin yaşadığı yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində həyatını itirən vətəndaşlarımızın fotosunun olduğu plakatları daşıyırdılar. Prezident İlham Əliyev üzərində şəhid baş leytenant Adil İbrahimlinin, Mehriban xanım Əliyeva isə Ermənistan ordusunun cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə şəhərini atəşə tutması nəticəsində həyatını itirən 10 aylıq körpə Narin Xalıqovanın şəkli həkk olunmuş plakatları aparırdılar.

Bu tədbir, Vətən müharibəsi zamanı Azərbaycan xalqının nümayiş etdirdiyi birliyin, xalq-rəhbər vəhdətinin davam etdiyini, gün keçdikcə daha da möhkəmləndiyini nümayiş etdirdi. Bütün dünya Azərbaycanın öz qəhrəmanlarına necə qiymət verdiyinin şahidi oldu.

Qeyd edim ki, yürüş dünyanın müxtəlif nüfuzlu media qurumlarında, eləcə də televiziya kanallarında geniş şəkildə işıqladırılıb, Prezident İlham Əliyevin şəhid ailələrinə, qazilərə göstərdiyi xüsusi diqqət və qayğı geniş auditoriyalara çatdırılıb.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, “Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 1 oktyabr.- S.2.